შეფასებისა და გამოცდების
ეროვნული ცენტრი



# Coğrafiya üzrə test

## Təlimat

Qarşınızdakı imtahan testinin elektron bukletidir.

Testin hər bir tapşırığının təlimatı ilə diqqətlə tanış olun, hər tapşırığın tələbini yaxşı düşünün və sonra işə başlayın.

Testin üzərində işləyərkən əlavə olunmuş xəritələrdən istifadə edin.

<u>Nəzərə alın ki, düzgün cavabla birlikdə qeyri-düzgün cavab da göstərsəniz, xal qazana bilməyəcəksiniz.</u>

Testin maksimum xalı - 59

Testin üzərində işləmək üçün sizə 5 saat vaxt verilir

Sizə uğurlar arzulayırıq!

➢ ***Seçimli cavabları olan sual – tapşırıq № 1-20***

***Təlimat***

Hər suala dörd cavab verilir. Onlardan ancaq biri düzgündür. Sizin seçdiyiniz cavabın düzgün işarə olunmasının yeganə yolu cavablar vərəqinin müvafiq xanasında X işarəsi qoymaqdır. Hər tapşırığa 1 xal verilir.

**1. Fotoda əks olunmuş hidroloji obyekti coğrafiyanın hansı sahəsi öyrənir?**



ა. Speleologiya

ბ. Limnologiya

გ. Qlasiologiya

დ. Metrologiya

**2. Xəritədə hansı təbii zonanın yayılma sahəsi verilmişdir?**



ა. Stepin

ბ. Səhranın

გ. Selvanın

დ. Savannanın

## 3. Bitkilərin növlərinin  çoxsaylı və çoxyarusluğu ilə ən çox hansı meşə fərqlənir?

ა. Qabayarpaqlı

ბ. İynəyarpaqlı

გ. Rütubətli ekvatorial

დ. Qatışıq

**4. İllüstrasiyada payızın gecə ilə gündüzün bərabərləşməsi ərzində səmanın tağında günəşin hərəkətinin trayektoriyası göstərilmişdir. Sxemdə hansı yerin verildiyinə diqqət yetirin və müəyyən edin:**



ა. Şimal qütbü

ბ. Şimal qütb dairəsi

გ. Ekvator

დ. Cənub tropiki

**5. Verilmiş diaqram üzrə düzgün informasiya hansıdır?**




ა. Aprelin 28-də, saat 16-18 radələrində, leysan yağış qeydə alındı

ბ. Aprelin 29-da havanın temperatur amplitudu $8^0$C idi

გ. Aprelin 29-da, saat 10-16 radələrində, dəyişkən buludluluq qeydə alındı

დ. Aprelin 30, saat 8-12 radələrində, güclü külək qeydə alındı

## 6. İllüstrasiyalarda hansı dövlətin sahil zolağı verilmişdir?





ა. Fransanın
ბ. Norveçin
გ. Almaniyanın
დ. Yunanıstanın

**7. Yer kürəsinin okean qabığının qalınlığı təxminən hansı kilometr hüdudlarında dəyişir?**

ა. 5-10

ბ. 30-40

გ. 55-70

დ. 80-100

**8. Dünyada güzgüsünün sahəsinə görə ən böyük içməli suyu olan göl hansıdır?**

ა. Zemo

ბ. Baykal

გ. Xəzər

დ. Titikaka

**9. Mineral sulardan kalsium karbonatın çökməsi nəticəsində hansı yüngül məsaməli qabıq yaranır?**



ა. Travertin

ბ. Bazalt

გ. Andezit

დ. Qranit

## 10. Verilmiş foto hansı dövlətdə çəkilmiş ola bilər?





ა. İspaniyada yaxud Portuqaliyada

ბ. İordaniyada yaxud İsraildə

გ. Hindistanda yaxud Pakistanda

დ. İranda yaxud Türkiyədə

**11. Dünyanın vahid iqtisadi vahid kimi sayılması nəticəsində hansı diaqram dünyanın iqtisadiyatının sahə strukturuna müvafiq ola bilər?**

ა.



ბ.



გ.



დ.


**12. Xəritədə dünyanın ölkələri üzrə spirtli içkilərin istehlakı (il/litr bir nəfərə) göstərilmişdir. Bəzi ölkələrdə spirtli içkinin minimal istehlakına (<2.1) sadalananlardan hansı başlıca səbəbdir?**




ა. Əhalinin sağlamlığının vəziyyəti

ბ. İqlim şəraiti

გ. Keyfiyyətli spirtli içkinin qıtlığı

დ. Dini amil

**13. Süveyş kanalı hansı dövlətin ərazisində yerləşir?**

ა. Suriyanın

ბ. İsrailin

გ. Misirin

დ. İordaniyanın

**14. XX əsrin ikinci yarısında hansı ölkə ən çox müstəqil dövlətə bölündü?**

ა. Çexoslovakiya

ბ. SSRİ

გ. Almaniya

დ. Yuqoslaviya

## 15. Fotoda təsvir olunmuş şərab hansı dövlətdə istehsal edilmişdir?




ა. İtaliyada

ბ. İspaniyada

გ. Portuqaliyada

დ. Fransada

**16. AES-lərin işi ilə əlaqədar əsas ekoloji problem nə sayılır?**

ა. Kənd təsərrüfatı təyinatlı torpaqları suyun basması

ბ. Təhlükəli geodinamik proseslərin fəallaşması

გ. Səs və elektromaqnit çirklənməsi

დ. Radioaktiv tullantıların zərərsizləşdirilməsi

**17.** **Hansı bölgədə ən çox miqdarda neft istifadə edilir?**

ა. Yaxın Şərqdə

ბ. Latın Amerikasında

გ. Cənub-Şərqi Asiyada

დ. Qərbi  Avropada

**18. Braziliyanın hansı şəhəri okean sahilindən təxminən 1500 kilometr aralıdır, lakin Atlantik okeanının liman şəhəri sayılır?**

ა. Braziliya

ბ. Manaus

გ. San-Paulo

დ. Rio-De-Janeyro

## 19. Xəritədə dövlətlər nəyə əsasən qruplara ayrılmışdır?




ა. Əhalinin sıxlığı üzrə
ბ. ÜDM-un həcmi üzrə
გ. Əhalinin sayına görə
დ. Qloballaşdırma indeksi üzrə (KOF)

## 20. Neytral statusu olan dövlət hansı şərtə əməl edirlər?

ა. Silahlı münaqişədə iştirak etmir, lakin hərbi blokun üzvü ola bilər

ბ. Silahlı münaqişədə iştirak etmir və heç bir hərbi blokun üzvü deyildir

გ. Heç bir beynəlxalq təşkilatın üzvü deyildir

დ. Beynəlxalq hərbi münaqişədə iştirak edə bilər, lakin heç bir hərbi blokun üzvü deyildir

- ***Uyğunluğun müəyyən edilməsi - tapşırıq № 21-27***

**Təlimat**

Tapşırıqda verilmiş iki siyahı arasında uyğunluğu müəyyən edin. Cavabı cavablar vərəqində verilmiş cədvələ yazın. Hər hərfin altından müvafiq rəqəmi yazın. Tapşırığa maksimum 2 xal verilir.

**21. Uyğunluğu müəyyən edin (cavabın təkrar edilməsinin mümkün olduğunu nəzərə alın):**

| | **Mühafizə olunan ərazi** | | **Dövlət** |
|---|---|---|---|
| ა | İeloustoun | **1** | ABŞ |
| ბ | Zəngəzur | **2** | Ermənistan |
| გ | Dilican | **3** | Rusiya |
| დ | Baykalyanı | **4** | Azərbaycan |
| ე | Zaqatala | | |
| ვ | Mamont mağarası | | |

**22. Uyğunluğu müəyyən edin (cavabın təkrar edilməsinin *qeyri-mümkün* olduğunu nəzərə alın):**

| | **Qitə** | | **Ən yüksək nöqtə** |
|---|---|---|---|
| ა | Şimali Amerika | **1** | Mauna-Loa dağı |
| ბ | Cənubi Amerika | **2** | Denal dağı |
| გ | Avstraliya | **3** | Kilimancaro dağı |
| დ | Antarktida | **4** | Akonkaqua dağı |
| | | **5** | Kostyuşko dağı |
| | | **6** | Txaulagir dağı |
| | | **7** | Vinson massivi |
| | | **8** | Erebus dağı |

**23. Uyğunluğu müəyyən edin (cavabın təkrar edilməsinin mümkün olduğunu nəzərə alın):**

| | İqlim qurşağının təsviri | | İqlim qurşağı |
|---|---|---|---|
| ა | Fəsillərin dördüdə kəskin surətdə əks etdirilmişdir | **1** | Ekvatorial |
| ბ | Tez-tez yağan yağışlar səciyyəvidir. Quru mövsümü yoxdur | **2** | Mötədil |
| გ | Havası soyuqdur. Ən isti ayın orta temperaturu 5-dən 10°C-dəkdir | **3** | Subarktik |
| დ | Qitələrdə səhra və yarımsəhra landşaftı, okeanda isə - suyun yüksək temperaturu və duzluluğu səciyyəvidir. Havanın antisiklon sirkulyasiyası, aşağı nisbi rütubət, az buludluluq tipikdir. | **4** | Tropik |
| ე | Hava hər gün bir-birinə bənzəyir. Havanın orta temperaturunun illik amplitudu kiçikdir | | |
| ვ | Qar örtüyü 8 aydan çox qalır, ərazinin əsas hissəsində daimi buzlaq hökm sürür | | |

**24.** **Uyğunluğu müəyyən edin (cavabın təkrar edilməsinin *geyri-mümkün* olduğunu nəzərə alın):**

**Foto**

ა


ბ


გ


დ


ე


ვ


**Qitə**

| 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 |
|---|---|---|---|---|---|---|
| Afrika | Asiya | Avstraliya | Antarktida | Avropa | Şimali Amerika | Cənubi Amerika |

## 25. Uyğunluğu müəyyən edin (cavabın təkrar edilməsinin *geyri-mümkün* olduğunu nəzərə alın):

**Yayılma dairəsi**

ა




ბ




გ




დ




ე




**Kənd təsərrüfatı bitkiləri**

| 1 | 2 | 3 | 4 | 5 |
|---|---|---|---|---|
| **Buğda** | **Pambıq** | **Düyü** | **Qarğıdalı** | **Şəkər çuğunduru** |

**26. Uyğunluğu müəyyən edin (cavabın təkrar edilməsinin mümkün olduğunu nəzərə alın):**

**Foto**



















**Elm sahəsi**

| 1 | 2 | 3 | 4 | 5 |
|---|---|---|---|---|
| Təhsil coğrafiyası | Seysmologiya | Okeanologiya | Speleologiya | Qurunun hidrologiyası |

**27. Uyğunluğu müəyyən edin (cavabın təkrar edilməsinin *geyri-mümkün* olduğunu nəzərə alın):**

**Valyuta**

ა


Funt sterlinq

ბ


Yuan

გ


Manat

დ


Dram

ე


Tenge

ვ


İyen

**Dövlət**

| 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 | 8 |
|---|---|---|---|---|---|---|---|
| Çin | İrlandiya | Qazaxıstan | Ermənistan | Türkmənistan | Azərbaycan | Yaponiya | Birləşmiş Krallıq |

## ➢ *İnformasiyanın təhlili - tapşırıq № 28-31*

**Təlimat**

Verilən informasiya ilə diqqətlə tanış olun (foto, cədvəl, qrafik və s.) və suallara cavab verin. Cavabı cavablar vərəqində ayrılmış müvafiq yerə yazın. Xalların miqdarı konkret tapşırığa görə müəyyən edilir.

**28. (2) İllüstrasiyaları təhlil edin və müəyyənləşdirin:**

**(ა) Birləşmiş Skandinaviya aviaxətlərindəki hansı dövlətlərdir?**

**(ბ) Bu rənglər nə üçün şirkətin loqosunun dizaynında istifadə olunmuşdur?**

SAS

Scandinavian Airlines



**29. (3) Fotoda təsvir olunmuş şəlalə Zambiya ilə Zimbabvenin sərhədində yerləşir. Müəyyən edin:**

**(ა) Fotoda hansı şəlalə təsvir olunmuşdur və o hansı çayda yerləşir?**

**(ბ) Bu şəlaləni ilk dəfə hansı Avropa tədqiqatçısı təsvir etmişdir?**



**30. (3) İllüstrasiyaları təhlil edin və müəyyənləşdirin:**

**(ა) Verilmiş illüstrasiyalar hansı problemi əks etdirir?**

**(ბ) İllüstrasiyanın göstərdiyi kimi bu problemi doğuran səbəb nədir?**

**(გ) Avropa İttifaqı ölkələri üçün bu problemə görə yaranmış bir konkret təhlükə barədə mülahizə yürüdün.**






## 31. (9) Verilmiş informasiyanı təhlil edin və suallara cavab verin:












Yer kürəsi təsviri xətlərlə şimal, cənub, şərq və qərb yarımkürələrinə bölünmüşdür. 78,7%-i suda, qalan 21,3%-i qurudan keçən bir təsviri xətt, Yer kürəsinin dövriyyə oxuna perpendikulyardır və qütblərdən bərabər məsafədə ayrılmışdır. Onun adı bərabərləşdirilmiş deməkdir. Bu xətt 14 dövlətdən keçir. Bu xəttin keçdiyi ən yüksək nöqtə Kayambe vulkanının yamacıdır (4690 m).

Keçid: mətnin ikinci səhifəsinə; suallara.

İkinci təsviri xəttin adı gunorta deməkdir. Birincidən fərqli olaraq onun fiziki mahiyyəti yoxdur. Müxtəlif vaxtlarda ayrı-ayrı ölkələrin fərqli başlanğıc meridianı olmuşdur. Hazırda qəbul edilmiş başlanğıc meridianı 1884-cü ildə beynəlxalq meridian konfransında qəbul olunmuşdur.

XIX əsrin 80-ci illərinədək hər bir ölkə lokal vaxtı Günəş saatı üzrə müəyyən edirdi. Bu cür saatlar iri şəhərlərin mərkəzi meydanlarında quraşdırılmışdır. Hər bir dəmiryol şirkətinin vaxtı onun ofisinin yerləşdiyi həmin şəhərin vaxtına təsadüf edirdi. Buna görə də böyük vaqzallarda onların neçə şirkətə xidmət etdikləri qədər və bütün müxtəlif vaxtları göstərən saatlar quraşdırılmışdı. XIX əsrin sonunda, Vaşinqton şəhərində beynəlxalq konfrans keçirildi, həmin konfransda uzun müddətli mübahisədən sonra belə bir meridiana razılaşdılar ki, vaxtın hesablanması həmin meridiandan başlansın. Yer kürəsinin səthi şərti olaraq saat zonalarına bölündü. Şimal və cənub qütblərində saat zonası anlayışı mənasını itirir. Orada qütblərin vaxtı dünya vaxtı ilə bərabərləşdirilmişdir. Dünyada koordinasiyalı vaxtları atom saatının köməyi ilə hesablayırlar ki, bu da Yer kürəsinin səthinin müəyyən nöqtəsində Günəşin olması üzrə hesablanan vaxtdan daha dəqiqdir. Müxtəlif səbəblərə görə vaxtın dövri surətdə düzəldilməsi zəruridir.

**Keçid: mətnin birinci səhifəsinə; suallara.**

**31.1. Mətndə xatırladılan bərabərləşdirici xətt hansı dövlətdən keçmir?**

ა. Braziliyada ბ. Keniyada გ. İndoneziyada დ. Sinqapurda

**31.2. (2) Mətndə təsvir olunan bərabərləşdirici xəttə nə deyilir və başlanğıc (sıfır) meridianı necə adlanır?**

**31.3. Bərabərləşdirilmiş xəttin yüksək nöqtəsi hansı dövlətdə yerləşir?**

**31.4. Coğrafi uzunluğun ölçüsündən başqa sıfır meridiandan daha hansı hesablama aparılır?**

**31.5. Şimal və cənub qütblərində saat zonası anlayışı nə üçün mənasını itirir?**

**31.6. (2) Belə qəbul edilmişdir ki, bir saat zonası paralelin $15^0$-lik qövsünə uyğundur. Bunu nəzərə almaqla izah edin:**

**ა) Yer kürəsində neçə saat zonası olmalıdır?**

**ბ) Real surətdə nə üçün daha çox saat zonası vardır?**

**31.7. Qədimdə dəmiryol vaqzallarına neçə şirkətin qatarı daxil olurdusa, o qədər saat quraşdırılırdı və hər biri müxtəlif vaxtı göstərirdi. Mətndə göstərilən faktı necə izah edirsiniz?**

**Keçid:** mətnin birinci səhifəsinə; mətnin ikinci səhifəsinə.

➢ ***Xəritənin təhlili - tapşırıq № 32***

**Təlimat**

Verilmiş topoqrafik xəritə ilə diqqətlə tanış olun və suallara cavab verin. Cavabı cavablar vərəqində ayrılmış müvafiq yerə yazın. Xalların miqdarı konkret tapşırığa görə müəyyən edilir.

## 32. (8) Topoqrafik xəritəyə görə suallara cavab verin:

**32.1. Şagird tərəfindən topoqrafik xəritə üzrə yerinə yetirilmiş hansı profil EF kəsiyinə uyğundur?**












**32.2. Sadalananlardan hansı nöqtədə olmalıyıq ki, Xerqa çayı (მდ. ხერგა) üzərindəki körpünü görək?**

ა. A    ბ. B    გ. C    დ. D

**32.3. Lodomisi dağı (მ. ლოდომისი) Xidiskuri (ხიდისკური) məntəqəsindən təxminən hansı azimutda yerləşir?**

ა. $55^0$    ბ. $175^0$    გ. $225^0$    დ. $305^0$

**32.4. Sadalananlardan dəniz səviyyəsindən Abuli dağının (მ. აბული) yüksəkliyinə hansı uyğundur?**

ა. 165,9 m.    ბ. 175,7 m.    გ. 180,3 m.    დ. 185,1 m.

**32.5. (4) Xəritəyə hidroqrafik şəbəkənin daxil edilməsində iki səhv buraxılmışdır. Səhvləri tapın və onların mahiyyətini izah edin.**



A
B
C
D
E
F
მდ. კოდა
158.1
173.1
167.9
162.3
180,7
მ. ლოდომისი
174.9
156.7
მ. აბული
შავშეთი
176.1
ახალდაბა
161.1
ტბა მარცვალა
180.3
ხიდისყური
167.1
168.9
165
160

## რელიეფი




ა) ძირითადი ჰორიზონტალები
ბ) ძირითადი გამსხვილებული ჰორიზონტალები
გ) ჰორიზონტალების სიმაღლის ნიშნულები მ-ში
დ) კალთის დახრის მაჩვენებლები (ბერგშტრიხები)

სიმაღლის ნიშნულები ა) ძირითადი ბ) ჩვეულებრივი

სიმაღლის ნიშნულები ორიენტირებით

სახელმწიფო გეოდეზიური ქსელის პუნქტები

ორმოები

ფლატე (ბექი) (16 სიღრმე მ-ში)

ხრამები და ღარტაფები

## მცენარეული საფარი და გრუნტი




წიწვოვანი ტყე

ფართოფოთლოვანი ტყე

შერეული ტყე

ხემცენარეების მახასიათებლები მ-ში: 20-საშუალო სიმაღლე. 0.20-მერქნის საშულო სისქე, 6-ხეებს შორის საშუალო მანძილი

ტყის ვიწრო ზოლები და დაცვითი ტყის ნარგავები (2- ხეების საშუალო სიმაღლე მ-ში)

ორიენტირის მნიშვნელობის მქონე ცალკე მდგომი ხეები: ა) წიწვოვანი ბ) ფართოფოთლოვანი

ახალი ტყის ნარგავების სიმაღლე 4 მ-მდე (2- ხეების საშუალო სიმაღლე მ-ში)

ა) ქარქცეული ტყე ბ) მეჩხერი ტყე

ა) გაჩეხილი ტყე ბ) გადამწვარი და ძირზემხმარი ხეები

განაჩეხი ტყეში
განაჩეხის სიგანე მ-ში

ბუჩქნარი ა) ცალკე მდგომი ბუჩქები და ბუჩქების დაჯგუფებები; ბ) ხშირი ბუჩქნარი

ა) მდელოს მცენარეულობა
ბ) ლელქაშის და ლერწმის ტიპის საფარი

ხეხილის ბაღი

ადვილადგასავლელი ჭაობები

## საგზაო ქსელი




ერთლიანდაგიანი რკინიგზა
ბაქნები, გზაგასაყარები

მიწაყრილებზე (ა) და ჩაღრმავებებში (ბ) გაყვანილი რკინიგზები (2-სიმაღლე ან სიღრმე მ-ში)

ვიწროლიანდაგიანი რკინიგზა

გზატკეცილი და ხიდი

გაუმჯობესებული გრუნტის გზები გასწვრივი მცენარეული ნარგავებით

გრუნტის გზები

მინდვრის და ტყის გზები

ზამთრის გზები

ფიჩხფენილი (ჭაობზე გადასასვლელად)

## დასახლებული პუნქტები და მათი წარწერები

### კვარტლები



ცეცხლგამძლე ნაგებობების სიჭარბით

არაცეცხლგამძლე ნაგებობების სიჭარბით

**ხალთა** 33 — სოფლები 20-დან 1000-მდე სახლების რაოდენობით
33 - სახლების რაოდენობა

ჩხავთა — სოფლები 20-ზე ნაკლები სახლით

## ცალკეული ადგილობრივი ნაგებობები




ქარხნები და ფაბრიკები

მოქმედი მაღაროები

სასარგებლო წიაღისეულის მოპოვების ადგილები თიხ.- მოპოვებული მასალა 10 - კარიერის სიღრმე მ-ში

ტორფის მოპოვება

ქარის წისქვილები

საფუტკრეები

ანძის ტიპის ნაგებობები

სასაფლაოები

კავშირგაბმულობის ხაზები

## ჰიდროგრაფია



მდინარეები, ნაკადულები,
ტბები

ჭები

წყაროები

## ტოპოგრაფიულ რუკებზე მიღებული შემოკლებები

| | | | |
|---|---|---|---|
| არყ. | აყის ხე | ქვ | ქვიშის კარიერი |
| ფიჭ. | ფიჭვი | ნახ | ქვანახშირი |
| ნაძ. | ნაძვის ხე | თიხ | თიხა |
| აქ | აგურის ქარხანა | მაღ. | მაღარო |